# Dnepropetrovskdakı soydaşlarımız monolit qüvvəyə çevrilib

*Dünyanın müxtəlif yerlərində məskunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu isə əslində respublikamızda aparılan dövlət siyasətində ümummilli mənafelərin reallaşdırılması deməkdir. Azərbaycan Respublikası dünya azərbaycanlıları tərəfindən milli-tarixi təkamülün bəhrəsi, milli mənliyin rəmzi, tarixi Vətən anlayışının inikası kimi qəbul edilmişdir.*

1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın tələbi ilə ümummilli lider Heydər Əliyev yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra ölkəmizin ictimai həyatının bütün sahələrində, o cümlədən dünya azərbaycanlıları ilə əməkdaşlıq istiqamətində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlanmışdır.

Xalqımızın mənəvi birliyi, azərbaycançılıq ideyaları hər yerdə olduğu kimi dost Ukraynanın Dnepropetrovsk şəhərində də öz parlaq təcəssümünü tapmışdır. Uzun illərdir ki, Ukrayna Azərbaycanlıları Konqresi Dnepropetrovsk regional təşkilatının sədri həmyerlimiz Qüdrət Hacıyevdir.

Bakıda keçirilən I Avropa Oyunları günlərində Qüdrət müəllim paytaxtımıza gəlmişdi. O, Oyunları izləyən çoxsaylı tamaşaçılar arasında idi. Biz münasib vaxtda dənizkənarı parkda, mavi Xəzərin nəğməli sahillərində Qüdrət Hacıyevlə görüşüb söhbət etdik. O, Azərbaycan mətbuatında I Avropa Oyunlarına həsr olunmuş yazıları həvəslə mütaliə edir, Prezident İlham Əliyev, Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva tərəfindən qızıl medallara layiq görülmüş idmançılarımızın mükafatlandırılmasını əks etdirən müxtəlif şəkilləri dönə-dönə nəzərdən keçirirdi.

Biz Qüdrət Hacıyevlə ecazkar mənzərəyə malik olan dənizkənarı parkda görüşdük. O, yaşadığı ölkədə milli diasporumuzun formalaşması istiqamətində görülən işlərdən həvəslə söhbət açaraq dedi:

— Azərbaycançılıq yalnız ölkəmizdə yaşayan azərbaycanlıların deyil, həm də bütün dünyada yaşayan soydaşlarımızın milli-mənəvi maraqlarını ifadə edən məfkurə kimi xalqımız tərəfindən qəbul olunmuşdur. Bu məfkurənin daşıyıcısı olan Dnepropetrovskdakı həmvətənlərimiz daim tarixi Vətəni olan Azərbaycanı düşünür, onun təəssübünü çəkir, adını uca tuturlar.

Dünya Azərbaycanlılarının Qurultayının yüksək səviyyədə keçirilməsi Dnepropetrovskdakı həmvətənlərimizin təşkilatlanması prosesində əhəmiyyətli dönüşə gətirib çıxaran addım olmuşdur. Fəxrlə demək olar ki, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlərin hər biri Ukraynada yaşayan soydaşlarımızın milli maraqlarının gerçəkləşdirilməsinə təminat yaratmışdır.

Ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: **"Gərək biz hamımız birlikdə çalışaq ki, müstəqil Azərbaycan dövləti, onun daxili siyasəti, Azərbaycanda gedən demokratik proseslər, Azərbaycanda gedən iqtisadi islahatlar, Azərbaycanda həyata keçirilən hüquqi islahatlar, insan hüquqlarının təmin olunması, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlətin yaranması və inkişaf etməsi bütün dünyaya çatsın və tanınsın".**

Vurğulamaq lazımdır ki, Dnepropetrovskdakı soydaşlarımız Azərbaycan Respublikasının beynəlxalq aləmlə münasibətlərinin inkişafında, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında iştirak etmək imkanına malik ən fəal qüvvəyə çevrilmişlər. Bir sözlə, başçılıq etdiyim təşkilat çoxəsrlik tarixə malik Azərbaycan diasporunun xalqımızın milli mənafelərini müdafiə etməyə qadir monolit bir qüvvə kimi formalaşdırılmasına çalışır.

Regional təşkilat ətrafında birləşmiş soydaşlarımızın hüquq və azadlıqlarının qorunması, onların qarşılaşdıqları problemlərin həlli istiqamətində məqsədyönlü iş aparılır.

Həmvətənlərimiz yaşadıqları ölkədə öz fəaliyyətləri ilə azsaylı xalqlar arasında fərqlənir, doğma xalqın, Vətənin, Cənubi Qafqazda lider dövlətə çevrilən Azərbaycanın nüfuzunu daim uca tuturlar. Məhz buna görə də yerli mətbuatda, televiziya kanallarında azərbaycanlılarla bağlı operativ yazı və verilişlər hazırlanır.



Dnepropetrovskda mütəmadi olaraq Dünya Azərbaycanlılarının Həmrəyliyi, Novruz bayramı, Respublika Günü, ulu öndərimiz Heydər Əliyevin doğum günü, Qurban bayramı, Milli Qurtuluş Günü və digər bayramlarla bağlı yaddaqalan tədbirlər keçirilir, mərasimlərdəki milli musiqimiz hamıda xoş ovqat yaradır.

Diaspor fəallarının təşəbbüsü ilə həmvətənlərimiz yaşadıqları ölkədə 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Mart qırğını ilə bağlı geniş tədbirlər keçirir. Anım mərasimlərində erməni vəhşiliyini əks etdirən sənədli filmlər, jurnal və kitablar nümayiş etdirilir.

Keçirdiyimiz tədbirlər Azərbaycan Televiziyasının Ukraynadakı nümayəndəliyi tərəfindən efirə hazırlanır, bu operativlik soydaşlarımız tərəfindən razılıqla qarşılanır. Azərbaycanlıların milli-mədəni özünəməxsusluğunun, tarixi ənənələrlə bağlılığının qoruyub saxlanılması diaspor quruculuğunun müasir mərhələsinin ən aktual məsələlərindən biridir və bu sahədə regional təşkilat tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

Soydaşlarımız müstəqil Azərbaycan Respublikasının beynəlxalq aləmlə münasibətlərinin inkişafında, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında iştirak etmək imkanına malik ən fəal qüvvəyə çevrilmişdir.

**Söhbəti yazdı:**
**Qədir ASLAN,**
**"Respublika".**